**Azərbaycanda Qanunsuz Siqaret Reklamları Üzərində Qadağa**
**Tofiqə Qasımova**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 3.4 (Qış 1995)
© 2002. Azerbaijan İnternational

Bakı sakinləri reklam lövhələrinə, hətta həddindən artıq böyük ölçüdə olanlara da alışmışıblar. Əvvəllər həmin lövhələrdə Leninin, Marksın, Brejnevin və digər partiya rəhbərlərinin partiyanı tərifləyən şüar və portretləri əks olunurdu. İndi isə onlar at minmiş və insanın gözlərini alov kimi qarsan səhra günündən qoruyan geniş şlyapa geymiş kovboy portretləri ilə əvəz edilmişdir.

İndi proletar rəhbərlərimiz tərəfindən sülh və beynəlmiləlçilik uğrunda mübarizə aparmağa çağrılmağımız əvəzinə bizə Marlboro, Lucky Strike və Kent siqaretlərinin tüstüsünü içimizə çəkmək təklif olunur. Bu reklamlar yüksək qrafik keyfiyyətə malik olurlar və adətən üzərlərində sadəcə üç sözün - "Made in USA" (azərbaycan dilində mənası "ABŞ-da hazırlanmışdır" deməkdir) yazıldığını görə bilərsiniz. Bu sözlər bizim "Amerika" adlanan məkana olan məftunluq hissimizdən istifadə etmək məqsədi daşıyır.

## Şəhərin Görünüşünün Pozulması

Bir çox qərb ölkələrində dövlət səviyyəsində siqaret əleyhinə iri həcmli kampaniya keçirildiyi halda, tütün şirkətləri öz məhsullarını satmaq üçün Azərbaycan kimi siqaretlə əlaqədar qanunvericiliyin və ya onların fəaliyyətini nizamlayan FDA (Amerika Birləşmiş Ştatlarında Ərzaq və Dərman Administrasiyası təşkilatı. Qısaltma ingilis dilindədir) kimi heç bir nizamlayıcı strukturun olmadığı ölkələrə axışırlar.

Siqaret istehsalçıları və yayım şirkətləri, əsasən də Marlboro siqaretini qablaşdıran Philip Morris şirkəti Azərbaycanda çox güclü reklam kampaniyası keçirir. Onların al-qırmızı rəngli reklamlarını hər yerdə - reklam lövhələrində, köşklərdə və dükanların qarşısında görmək olar. Bizi şəhərimizin tayı-bərabəri olmayan gözəl görünüşünü pozan bir epidemiya bürümüşdür. Hər yerdə mövcud olan bu reklamların Bakının ötən əsrin əvvəllərində tikilmiş sehrli klassik arxitekturanın gözəl nümunələri yerləşən mərkəz hissəsində görünməsi adama daha dözülməz təsir bağışlayır. Misal üçün, oktyabr ayından biz artıq saysız-hesabsız siqaret reklamlarının əlindən 8 əsr şəhərimizin orientir rolunu oynayan əzəmətli abidə olan Qız Qalası istiqamətinə baxa bilmirik. Bəs arxitektur binaların qoruyucuları niyə şəhərimizin estetikasını pozan belə müdaxilələrə göz yumurlar?

Biz reklamlardan hətta gecənin qaranlığında belə canımızı qurtata bilmirik. Şəhərimiz gecələr böyük ölçülü siqaret qutuları şəklində olan Marlboro çıraq qutularının qırmızı rəngli şöləsinə bürünür. Onlar demək olar ki, hər bir dükanın qarşısında yerləşdirilmişdir və şəhərin küçə fanarlarından daha işıqlıdırlar.

Siqaret şirkətləri görünür, mallarının baha başa gəlməsinə baxmayaraq onları satmaqda uğur qazanırlar. "Viceroy", "President" və "Congress" kimi orta qiymətli siqaretlərin qiyməti hər bir qutu üçün 33 sentdir (1500 manat). Xaricdən gətirilmiş siqaretlər (Winston, Camel, Kent, Marlboro, Strike daxil olmaqla) isə təxminən 1 dollaradır. Adi dövlət işçisinin orta əmək haqqı 10-15 dollar olduğundan, belə bir vərdişə aludə olmaq bizim üçün çox bahadır.

### Kişilər – Hədsiz Siqaret Çəkənlər

Siqaret çəkmək Azərbaycanda xüsusilə kişilər arasında müstəsna deyil, normal haldır. Hətta həmin şirkətlər Azərbaycanda reklam kampaniyalarına başlamamışdan əvvəl də kişilər arasında birinci dərəcəli ölüm halları göstəricisi ürək xəstəliyi idi. Bundan sonra xərçəng xəstəliyi gəlirdi. Hər iki xəstəlik aydındır ki, olaraq siqaret çəkmə ilə əlaqədardır. Hələ siqaretin tənəffüsü və qan dövranını ağırlaşdırması kimi digər təsirindən danışmırıq. Bu xəstəliklər millətimizin həyat əhəmiyyətli ehtiyatlarını, xüsusilə də əvəz olunması mümkün olmayan insan ehtiyatını məhv edir.

Azərbaycanda qadınlar adət etibarilə siqaret çəkmirlər. Çəkənlər isə adətən bunu ictimaiyyətdə etmirlər. "Yaxşı qızlar siqaret çəkmir." Buna görə də teatrda və konsert zallarında fasilələr zamanı kişilər siqaret çəkmək üçün dəhlizlərə tələsərkən orda-burda, bəzi qadınlar ayaq yolunda porter kreslosunun arxasında gizlənərək siqaret çəkirlər. Eynilə həmin vəziyyət universitetlərdə də baş verir.

### Siqaret Əleyhinə Heç Bir Qanun Yoxdur

Ölkəmizdə siqaret çəkmənin ziyanlı təsiri haqqında xəbərdarlıq edən heç bir qanunvericilik yoxdur. Siqaret qutuları üzərində Səhiyyə Nazirliyi tərəfindən verilmiş "siqaret çəkmək sizin sağlamlığınız üçün təhlükə törədə bilər", "siqaret tüstüsünün tərkibində karbon monoksid vardır" və ya "siqaret çəkməyi tərgitmək sağlamlığınıza qarşı ola biləcək ciddi risklərin sayını azaldır" kimi heç bir xəbərdarlıq verilmir. Hamilə qadınlara da "hamiləlik müddətində siqaret çəkmək çox ciddi nəticələrlə, vaxtından əvvəl doğuş və yüngül çəkili uşaqların dünyaya gəlməsi ilə nəticələnə bilər" deyə bilən heç bir hüquqi şəxs yoxdur. Zəhərin təsirini azaltmaq üçün siqaretlərdə nikotinin tərkibinin azaldılması üçün məhdudiyyət yoxdur və qarşıdakı dükandan siqaret qutusu alan 18 yaşından aşağı olan uşağa isə heç kəs etiraz etmir.

Qərbdə həyata keçirilən siqaret əleyhinə hərakatda ən böyük irəliləyiş bir neçə il bundan əvvəl elmi tədqiqatlar nəticəsində "ikinci dərəcəli siqaret çəkmə"-nin yəni ətrafdakıların siqaret tüstüsünü qəbul etmələrinin həyat üçün təhlükəli olduğu sübut edildikdən sonra

baş verdi. O vaxta qədər belə fikirləşirdilər ki, siqaret çəkmək şəxsi seçimdir və əgər sən öz bildiyin kimi hərəkət edirsənsə bunun heç kimə dəxli yoxdur.

Ancaq tədqiqatlar bunun belə olmadığını sübut etdikdən sonra insanlar birdən-birə siqaret çəkməyə qanunilik nöqteyi nəzərindən yanaşmağa başladılar. Ancaq burada, Azərbaycanda qadınlar, uşaqlar və kişilər daimi olaraq onlar üçün labüd olan təhlükədən xəbərləri olmadan "passiv siqaret çəkmə"-yə məruz qalırlar.

Azərbaycanda iş yerlərində, taksilərdə, təyyarələrdə, restoranlarda və çayxanalarda siqaret çəkməyi qadağan etmək üçün siqaret əleyhinə heç bir kampaniya həyata keçirilmir. Həmçinin qəzetlərdə, jurnallarda və xüsusilə də ictimaiyyətimizə və gənclərimizə güclü təsir göstərmək qabiliyyətinə malik olan televiziyada siqaret reklamı əleyhinə heç bir qanunverici akt yoxdur.

### Yeni Konstitutsiya

Bizim "təhlükəsiz və sağlam ətraf mühitdə yaşamaq və işləmək hüququ" vəd edən yeni qəbul edilmiş konstitutsiyamız vardır. İndi isə həmin maddəyə "tüstüsüz atmosfer" bəndini də əlavə etmək üçün parlamenti inandırmaq xalqdan asılıdır. Hökumət rəsmi məmurları bu barədə məsuliyyət daşımalıdırlar. Və onların bu işlə məşğul olmalarını təmin etmək isə ətraf mühit məsələləri ilə məşğul olanların, arxitektura qoruyucularının və qadın birliklərinin işidir.

Bu vərdişin qeyri-qanuni olduğunu elan etmək mümkün olmasa da siqaret çəkənləri bu yoldan daşındıramaq üçün çox yollar vardır. Bu yollardan biri siqaret üzərində yüksək vergilərin və tariflərin qoyulmasıdır. Digər bir yol isə bəzi ictimai yerlərdə siqaret çəkməyə qadağa qoymaqdır. Başqa bir yol siqaret reklamlarını qadağan etməkdir. Ən effektiv yol isə siqaretin xüsusilə gənclər arasında yayılmış ovsunedici təsirini aradan götürməyə istiqamətlənmiş çox ciddi təlim kampaniyası keçirməkdir.

Görünür, bu ideyalar Azərbaycanda həyata keçirilənə qədər hələ çox vaxt keçəcək - o vaxta qədər bir çoxlarımız artıq onun tüstüsü ilə zəhərlənmədən nəfəs ala bilməyəcəyik.

Jurnalist Tofiqə Qasımova Bakıda çalışır. Ətraf mühit məsələləri ilə məşğul olan Fuad Ələkbərovun da bu məqalədə əməyi olmuşdur.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova